Azad AZƏRBAYCAN
MÜSTƏQİL İCTİMAİ-SİYASİ QƏZET
10 dekabr. 2020- ci il



# Vətənin oğlu

*(Xüsusi təyinatlı qüvvələrin Yaşma döyüş qrupunun kəşfiyyatçısı Şəhriyar Quliyevin əziz xatirəsinə)*

(Elegiya)



**İnsan ömrü taleyin qismətində, alın yazısındadır. Hər bir insanın ömür yolu onun tarixə dönən yaşam səhifələrindədir. Ömür tarixi Allah eşqi ilə nurlananda Haqq dərgahına qovuşanlar seçilmiş olurlar. Onların şərəfli ömür tarixi də unudulmur və heç zaman yaddan çıxmır. Çünki bu tarix mərdlik, igidlik, dürüstlük, pak və təmiz mənəvi əxlaqdan yoğrularaq yaddaşlara köçür. Xalqımızın müstəqillik tarixi, Vətənin birinci və ikinci savaş tarixi kimi. Tarix də o vaxt şərəfli olur ki, ölərək ölümsüzlük qazanan şəhidlərimizin qanı ilə yazılır.**

Yurdsevərliyi, qəhrəmanlığı, şücaəti ilə tarix yazan ər, nər oğullardan biri də xüsusi təyinatlı qüvvələrin Yaşma döyüş qrupunun kəşfiyyatçısı Şəhriyar Nəsib oğlu Quliyevdir. Ağdam şəhərində doğuldu, Sumqayıt şəhərində 15 nömrəli tam orta məktəbdə təhsil aldı, böyüdü, boya-başa çatdı. Hərbçi olmaq arzusunu reallığa çevirdi. Vətən sevgisiylə cilalandı. Yurdunu hər şeydən və hər kəsdən çox sevdi. Məğrurluğu, cəsarəti və cəldliyi onu idmanla məşğul olmağa yönləndirdi. Onu tanıyanlar deyirlər ki, Şəhriyarda sevgi və qol gücü, ağıl və zəka vəhdəti vardı. Güc, ağıl və zəka sevgiyə söykənəndə həqiqət aynası yaranır. Şəhriyar Nəsib oğlunun həqiqət aynası - Vətəni sevmək, onun uğrunda mübarizəyə qalxmaq və Şəhid olmaq oldu. Dünənin, bu günün qeyrət salnaməsinə, qəhrəmanlıq simvoluna, ləyaqət zirvəsinə, sabahımızın qürur mənbəyinə, örnək təmsilçisinə döndü şəhidliyi ilə Şəhriyar Quliyev. Tükənməz cəsarətlə qorxmazlığı, mübarizliyi ilə qəlb dünyamızın müqəddəs and yerində zinətlənərək əbədiyaşar sakinə çevrildi elimin -obamın mərdanə Şəhriyarı. Canından artıq sevdiyi Vətəni uğrunda şücaətlə döyüşdü, qəhrəmanlıq dastanı yazdı. Vətənin oğlu, Yurdunun vətəndaşı,el-obasının yenilməz qəhrəmanı oldu Şəhriyar Nəsib oğlu . Hər bir şeyə şahid olaraq şəhid oldu. Şəhid qardaşları ilə birgə həsrətimiz, kədərimiz, göz yaşımız, ürək ağrımız oldular, ölümün gözünə dik baxaraq ölümsüzlük qazandı bu comərdlər. Həm də ucalığımız, fəxrimiz, zəfərimiz, qələbəmiz, vüqarımız enməyən, yüksələn bayrağımız oldular. Onlar vuruşub dönməməyi seçdilər, Vətən sevgilərini əməlləriylə göstərdilər. Qarabağımın harayına çatıb bizləri qarabağlı etdilər. Bütöv Vətəni bizlərə ərməğan edərək qürurlu, hünərli, alnı açıq olun dedilər. Anaların sızıltılı bayatılarını şaqraq zümzüməyə çevirərək göz yaşlarını sildilər. Vətən həsrətli atalarının arzularını çin etdilər. Əsir olan ocaq daşlarımızın məkanlarını azad edərək Qarabağda üçrəngli əzəmətli bayrağımızı sancdılar. Dedilər: "Qarabağ Azərbaycandır!"



**Qəhrəmanlığı ilə ucalan Şəhriyar Quliyevin bizlərə hünərli, dəyanətli, Şəhriyarı üçün yanıb qovrulsada gizlətməyi bacaran çox qürurlu xanımı, iki körpə balası və uğrunda şəhid olaraq bizlərə əmanət etdiyi bütöv Azərbaycanı qalıb Şəhriyarın. Bu dəyərliləri göz bəbəyi kimi qorumaq hər bir Azərbaycan vətəndaşının boynunun borcudur.**

Soydaşlarımız, unutmamalıyıq ki, Şəhriyar və onun şəhid qardaşları öz övladlarını atasız qoydular ki, başqa uşaqlar atasız qalmasın, həyat yoldaşlarını yarım qoyaraq haqq dünyalarına qovuşdular ki, digər qadınlar dul qalmasınlar. Torpaq, Yurd uğrunda şəhid oldular ki, vətənimizi kimsə parçalaya bilməsin. Vətənimiz bölünməsin.

Haqqınızı ödəmək mümkün deyil mənim hər biri bənzərsiz olan şəhid balalarım, sərkərdə, igid qardaşlarım. Allah bütün şəhidlərimizə rəhmət eləsin!

**Yaşasın müstəqil və bütöv Azərbaycan!**

**Ucalsın, daim ucalsın Üç Rəngli Bayrağımız!**

**Yaşasın, şöhrətli, rəşadətli Azərbaycan Ordusu!**

**Var olsun, müzəffər Ali Baş Komandan!**

**Qarabağ Azərbaycandır!**



**Elmira YAQUBOVA,**
**Sumqayıt şəhər 15 nömrəli tam orta məktəbin direktoru**